# Restoran, kafe, bar, şadlıq evi mülkiyyətçilərinin istifadəsi üçün

Azərbaycan Respublikası
Müəllif Hüquqları Agentliyində hazırlanmışdır

Azərbaycan Respublikası
Müəllif Hüquqları Agentliyi




Azərbaycan Respublikası
Müəllif Hüquqları Agentliyi

# Əsərlərdən istifadənin bəzi növlərinə görə qonorar ödənilməsi qaydalarına dair

# İZAHLAR

Bakı - 2017

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 2017-ci il tarixli 466 nömrəli Qərarı ilə 1997-ci ildə qəbul edilmiş 38 nömrəli Qərara müəyən dəyişikliklər edilmişdir. Bu Qərarla bir sıra, o cümlədən restoranlarda, kafelərdə, barlarda və şadlıq evlərində musiqili əsərlərdən istifadəyə görə müəlliflərə və hüquq sahiblərinə qonorarın hesablanması, qonorarın kimin tərəfindən ödənilməsi və ödənişin qaydaları ilə bağlı məsələlər tənzimlənmişdir.**

**Qərarla edilmiş dəyişikliklərin restoranlar, kafelər, barlar, şadlıq evləri və digər obyektlərdə tətbiqini asanlaşdırmaq məqsədilə Müəllif Hüquqları Agentliyi tərəfindən mülkiyyətçilərinin istifadəsi üçün təlimat xarakterli sənəd hazırlanmışdır. Bununla əlaqədar, həmin obyektlərin mülkiyyətçilərinin aşağıdakılara diqqət yetirməsi tövsiyə olunur.**

**1.** Restoranlarda, kafelərdə, barlarda və digər ictimai yerlərdə (tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq) mətnli, yaxud mətnsiz musiqili əsərlərin (istər artist-ifaçıların ifasında, istərsə də mexaniki yazma şəklində) istifadəsinə görə **1 (bir) hesabat ayı üçün Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə 60 manat, digər şəhər və rayonlar üzrə 50 manat həcmində müəllif qonorarı ödənilməlidir** (Qərarın 3-cü Əlavəsinin "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı" bölməsinin 31-ci bəndi).

**2.** Şadlıq evlərində, restoranlarda, kafelərdə və digər ictimai yerlərdə (tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq) **keçirilən toy mərasimlərində** mətnli, yaxud mətnsiz musiqili əsərlərin istifadəsinə görə **toy mərasiminin keçirildiyi hər gün üçün Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə 25 manat, digər şəhər və rayonlar üzrə 20 manat qonorar ödənilməlidir** (Qərarın 3-cü Əlavəsinin "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı" bölməsinin 32-ci bəndi).

Qeyd olunan qonorar məbləği 1 toy mərasimi üçün nəzərdə tutulmuşdur. Qonorarın ödəyiciləri ay ərzində olmuş toy mərasimlərinin sayını qonorar məbləğinə vurmaqla 1 ay üçün ödəyəcəyi qonorar məbləğini hesablayır və həmin məbləği müəlliflərinin yaratdıqları qonorar yığan İctimai birliyin hesabına köçürürlər.

Məsələn, 1 ay ərzində 1 şadlıq evində 20 toy mərasimi keçirilmişdirsə, Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə 500 manat, digər şəhər və rayonlar üzrə 400 manat həcmində müəllif qonorarı ödənilməlidir.

**3. Göstərilən qonorar məbləğləri əsərlərin istifadə olunduğu obyektlərin mülkiyyətçiləri tərəfindən odənilir** (Qərarın 3-cü Əlavəsinin "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı" bölməsinin 32-ci bəndindən sonra gələn **"Qeyd"**in ikinci abzası). Həmin obyektlərin icarəyə verildiyi hallarda icarə müqaviləsində qonorarın kim tərəfindən ödənilməsi mütləq qaydada göstərilməlidir.

**4.** Restoranların, kafelərin, barların, şadlıq evlərinin və digər obyektlərin mülkiyyətçiləri **hesabat ayı başa çatandan sonra 10 gün müddətində** əsərlərdən istifadəyə görə hesablanmış qonorar məbləğini müəlliflərin yaratdıqları qonorar yığan İctimai birliyin hesabına köçürməlidirlər.

**5.** Qonorar məbləği köçürülməklə yanaşı, hesabat ayı ərzində həmin obyektdə istifadə olunmuş əsərlərin əks olunduğu **Repertuar hesabatı** da həmin İctimai birliyə təqdim olunmalıdır.

Repertuar hesabatı hesabat ayı başa çatandan sonra hazırlanır və əsərlərin istifadə olunduğu obyektin səlahiyyətli şəxsləri tərəfindən imzalanır.

Repertuar hesabatı 1 (bir) hesabat ayına görə tərtib olunur. Hesabat hazırlanarkən ötən ay ərzində faktiki istifadə olunmuş əsərlər haqqında məlumat (siyahı) əsas götürülür.

Bununla əlaqədar, əsərlərin istifadə olunduğu obyektin məsul şəxsi tərəfindən hesabat ayı ərzində müvafiq qeydlər aparılır və yekun Repertuar hesabatı hazırlanarkən həmin qeyd-məlumatlar əsas götürülür.